# Cənab prezident

Məhəmmədəli Cabiri

kitaboxu.com

Onun üçün gecə-gündüzün, vaxtlı-vaxtsızın, iş-qeyri-iş gününün fərqi yox idi. Prezident kimi işə başladığı birinci gündən vilayət səfərlərini plana saldı. Getdiyi hər vilayətdə ən imkansız kəndlərin ziyarətini protokola daxil etməyi tapşırırdı. Xalqla, xalqın arasında oldu, xalq üçün işlədi və canını verdi. Xalq da milyonluq dəfn mərasimi ilə onu Allaha doğru yola saldı. Şəhid Rəisinin həyatından iyirmi maraqlı xatirəni hekayət edən "Cənab prezident" kitabı Leyla Ərbabinin rəssamlığı ilə daha da maraqlı olacaqdır.

kitaboxu.com

**Allahın adı ilə**

# Giriş əvəzi

Şəhadətinə qədər çoxları onu nə tanıyır, nə də dəyərini bilirdi. Bir çoxları ona savadsızlıq etiketi vurur, bəziləri ölkəni idarə etməkdə aciz hesab edirdilər. Seyid İbrahim isə belə soyuq münasibətlərə əhəmiyyət vermədən xalqa, xüsusən də yoxsullara xidmət edirdi.

Özü əzab çəkmiş adamdı, xalqın dərdini anlayırdı. Beş yaşında atasını itirmiş, uşaqlıqdan anası ilə birlikdə işləmişdi. İş, çətinlik və həyatın sıxıntıları onun təhsilinə mane ola bilməmişdi. Təxminən on beş yaşında elm hövzəsinə daxil oldu. Bir qədər Məşhəddə təhsil alandan sonra Quma getdi. İmam Xomeyninin mübarizəsi başlayanda dərslə bərabər mübarizə də dəyişməz proqramlarından biri oldu.

kitaboxu.com

İdarəçiliyə prokuror köməkçiliyi ilə başladı, az sonra isə Kərəc vilayətinin prokuroru oldu. İşdə uğurlarına görə Həmədan prokurorluğunu da ona həvalə etdilər. Sonralar isə Məhkəmə hakimiyyəti sədrinin birinci müavini, 2015-ci ildə isə İmam Xameneinin fərmanı ilə İmam Rzanın (ə) məqbərə kompleksinin rəisi vəzifələrini üzərinə götürmüş, üç ildən sonra Məhkəmə hakimiyyətinin sədri təyin edilmişdir. Orada da vəzifələrini uğurla yerinə yetirəndən sonra çoxları ondan prezident seçkilərində namizədliyini irəli sürməsini xahiş etdilər. Namizəd oldu, xalq da ona etimad göstərdi. Üç il dayanmadan çalışdı, 2024-cü ilin mayında isə helikopter qəzasında şəhadətə qovuşdu.

kitaboxu.com

# Məktəb

Beş yaşında olanda atası onları həmişəlik tək qoydu. Seyid İbrahim bacı və qardaşları ilə birgə yalqız ana yanında böyüməli oldu. Ana maddi problemlərə görə evin iki otağını kirayə verdi və bütün ailə üzvləri bir otaqda yaşamağa məcbur oldular.

Otaqların kirayə məbləği az idi, ailənin dolanışığını təmin etmirdi. Ana işləməli idi, amma evdə olmadığı saatlarda Seyid İbrahimi haraya qoyacağını bilmirdi. Çarəsiz qalıb əlindən tutdu və birlikdə məktəbə yola düzəldilər.

kitaboxu.com

Direktor vəsiqəni aldı, balaca oğlana baxıb dedi:

- Ana, bunun altı yaşı var, məktəbə gəlməyə bir ili qalıb.

- Bu uşaq yetimdir, - deyə ana kövrəlib oğlunun başını tumarladı və ağlaya-ağlaya əlavə etdi: - Mən də uşaqları dolandırmaq üçün işləməliyəm. Amma bu uşağı səhərdən

günortaya qədər haraya qoyacağımı bilmirəm.

Direktorun ona yazığı gəldi. Ananı bayıra göndərdi, bir neçə sual-cavabdan sonra Seyid İbrahimdən xoşu gəldi, onun istedadlı olduğunu hiss etdi, bir yaş kiçikliyinə göz yumub onu məktəbə götürdü.

kitaboxu.com

# Məndən böyüklər

Yolları bağlayıb silahla avtomobillərin önünü kəsir, istədikləri adamı həbs edirdilər. Bəzən də qanunu pozmuş şəxsi oradaca məhkəməsiz-hökmsüz cəzalandırırdılar.

Seyid İbrahim onda Kərəcin prokuroru idi. Xəbəri eşidən kimi dözmədi, dərhal Tehrana gedib vəziyyəti Baş prokurora məruzə etdi və şikayətlərini bildirdi.

Cənab Qüddusi təəssüf əlaməti olaraq başını yelləyib dedi:

- Bu problemlər təkcə Kərəcə xas deyil, digər yerlərdə də var. Bunlara cənab Xalxali tərəfindən qaçaqçılarla mübarizə tapşırığı verilib, amma çox radikaldırlar, qayda-qanuna məhəl qoymurlar. İmam Xomeyni ilə görüşüb vəziyyəti məruzə edəcəyəm.

- Kərəc problemini özüm həll edərəm, - deyə gənc prokuror sakitləşdi, - siz başqa yerlər barədə bir iş görün.

kitaboxu.com

Bir-iki gündən sonra həmin məmurların nəzarət postuna getdi, silahlarını alıb özlərini polis bölməsinə təhvil verdi.

Bir neçə saatdan sonra cənab Xalxali zəng edib dedi:

- Siz qaçaqçılığa qarşı mübarizə məmurlarını həbs etdirmisiniz?

- Bəli.

- Səndən böyüklər də bunu edə bilməzlər, - deyə Xalxali daha da hirsləndi.

Cənab Rəisi qorxmadan boğazını arıtlayıb cavab verdi:

- Mən elədim, oldu. Mən Kərəcdə işləyirəmsə, burada qanunsuz işə icazə verməərəm. Məndən böyüklərə də salam söyləyin!

kitaboxu.com

# Xüsusi hədiyyə

Kərəc prokurorluğuna gəlib israrla prokuroru görmək istəyirdi. Cənab Rəisinin qarşısında oturdu, onu bir qədər tərifləyib dedi:

- Kərəcin Cavanşəhr qəsəbəsində hər biri 4 sot olan bir neçə torpaq sahəm var. İstəyirəm ki, birini sizə verim, satıb pulunu ehtiyaclılara verəsiniz.

Seyid İbrahim qəbul etmədi. Kişi israr etdi, o, yenə razılaşmadı.

Varlı kişi bir neçə gündən sonra şəhərin nüfuzlu adamlarından birinin yanına gedib xahiş etdi ki, prokuroru torpağı almağa razı salsın. Üçüncü şəxsin israrları da nəticə vermədi. Kişi torpağı cənab Rəisinin özünə də bağışlamaq istədi, amma yenə qəbul etməyib dedi:

- Yaxşı olar ki, gedib İmdad komitəsi ilə danışasınız. Bu şəhərdə mənim heç nəyim yoxdur. Gecələr də prokurorluqda yatıram. Mən bu torpağı qəbul etsəm, camaatın

kitaboxu.com

beyninə min cür fikir gələr və daha heç kim mənə inanmaz.

kitaboxu.com

# Dəbdəbəli ev

İnqilabdan sonra şah rejiminin vəzifəli şəxsləri ev və mülklərini qoyub qaçdılar. O zaman cənab Rəisinin evi yox idi. Bəziləri təklif etdilər ki, şahın keçmiş Baş nazirinin sürücüsünün evini alsın. 800 kv metrlik ev idi, ucuz qiymətə satılırdı. O, bu təklifi dərhal rəd edib dedi:

- Xalq ona görə inqilab etməyib ki, müdirlər gedib dəbdəbəli evlərdə yaşasınlar.

Dostu israr etdi:

- Sən də bu xalq üçün zəhmət çəkirsən, evin də yoxdur. Odur ki, bu evdə yaşamaq sənin haqqındır.

- Bizim Allahımız da böyükdür, - yenə qəbul etməyib dedi. – Bu qədər böyük şəhərdə bizə də bir yer tapılar.

İşdən sonra ev almaq barədə daha ciddi düşündü. Bütün pulunu toplayıb hesabladı, amma yenə ev almağa çatmadı.

Bəzi dostlarına müraciət etdi. Bir qədər borc alıb alqı-satqı ofislərini gəzməyə

kitaboxu.com

başladı. Çox evə baxdı; bəzisi baha idi, pulu çatmırdı, bəzisi də o qədər köhnə idi ki, yaşamaq mümkün deyildi. Nəhayət, bir müddət axtarandan sonra münasib bir ev tapıb aldı və kirayəçilikdən həmişəlik xilas oldu.

kitaboxu.com

# Peykan

Sual-cavab üçün Şərif universitetinə dəvət etmişdilər. Dövlət Baş Təftiş Komitəsinin sədri ilə açıq danışmaq istəyirdilər. Bütün suallar ciddi və aktual idi. Müxtəlif şəxslərin işləri barədə soruşurdular və cənab Rəisi təmkinlə cavablandırırdı. Görüş bitdi, amma tələbələrin sualları bitmədi. Bir qrup tələbə başına toplaşıb sual verdilər və cavablarını aldılar.

Zaldan çıxandan sonra bir tələbə soruşdu:

- Cənab Rəisinin avtomobili hansıdır?

Dövlət Baş Təftiş Komitəsinin sədrinin avtomobilinin sadə bir Peykan olduğuna inana bilmirdilər.

Təəccüblə dedilər:

- Doğrudan?!

- Bumu?!

- Biz digər məmurların da maşınlarını görmüşük. Çoxu xarici maşında gəzir. Məsələn, bu valinin Toyotası var.

kitaboxu.com

- Beytülmal, həya elə, məmurları tərk elə! – deyə tələbələrin biri ritorik şüara başladı. Digər uşaqlar da şüarı təkrarlayıb valiyə və digər məmurlara etiraz səslərini ucaltdılar.

kitaboxu.com

# Aşura ziyarətnaməsi

Cənubi Afrikaya rəsmi səfərə getmişdi. Pretoriyanın adi, ulduzsuz bir otelində qalırdı. Cənubi Arika İslam Mərkəzinin sədri cənab Rəisinin gəldiyini eşidib otelə getdi. Onu gəzdirmək, şəhəri göstərmək istəyirdi.

Günəşin batmasına bir saat qalmış cənab Hüseyni dedi:

- Hazırlaşın, gedək.

Cənab Rəisi təşəkkür edib cavab verdi:

- Əgər bir-iki saat tez gəlsəydin, gedərdik. İndi alınmaz...

Cənab Hüseyni şikayətlənib dedi ki, mən Yohannesburq şəhərindən sizi gəzdirməyə gəlmişəm, sizsə getmirsiniz?!

Səbəbini demək istəmirdi, amma çarə yox idi. Üzünü cənab Hüseyniyə tutub dedi:

- Seyid can, qüruba bir saat qalır. Mən otuz ildir cümə günlərində qürub çağı Aşura ziyarətnaməsini oxuyuram. İndiyədək bir dəfə də tərk olunmayıb, qoy bu həftə də tərk etməyim. İstəyirsənsə, gəl, birlikdə oxuyaq.

kitaboxu.com

İkisi də üzüqibləyə oturdu. Cənab Rəisi Aşura ziyarətnaməsini oxumağa başladı. Elə diqqətlə oxuyurdu ki, sanki Kərbəladadır və İmam Hüseynin (ə) məqbərəsində oturub. Ziyarətnamənin ortasında bir neçə dəfə gözlərindən yaş axdı. Oxuyub qurtarandan sonra dedi:

- Mənim nəyim varsa, İmam Hüseynlə əlaqəmə və bu Aşura ziyarətnaməsini oxuduğuma görədir.

kitaboxu.com

# Əba

Fikirləşdi ki, bir əba alıb İmam Rzanın (ə) zərihinə sürtsün və bundan sonra namazlarını əba ilə qılsın. Rza bazarına gedib birinci mağazadan əba aldı.  Tünd qəhvəyi rəngli əba idi. Sübh azanına yaxın məqbərəyə getdi.

İçəriyə əlavə əşya aparmaq qadağan idi. Çarəsiz qalıb əbanı çiyninə atdı və o şəkildə içəri girdi. Özünə baxanda onu gülmək tutdu; bənövşəyi rəngli qısaqol maykanın üstündən qəhvəyi əba geymişdi. Həyətdə əbanı çıxarıb, əlində tutdu və zərihə doğru yola düzəldi. Nə olur-olsun, təbərrük məqsədilə onu zərihə sürtmək istəyirdi. Çox çalışdı, amma bacarmadı.

Əbanı geyib camaatın içinə girdi. Zərihdən tutmağa cəhd etdiyi yerdə azan verildi və qapılar bağlandı. Camaat namazı bitəndən sonra Gövhərşad məscidinə gedib bir tərəfdə namaza başladı. İkinci rükətdə olanda arxasında qələbəlik yarandığını hiss etdi. Namazı tez bitirib geri döndü.

kitaboxu.com

Gözlərinə inana bilmirdi. Ayətullah Rəisi bir neçə nəfərlə arxadaydı. Ayətullah yaxınlaşıb ona əl verdi, üzr istəyib dedi:

- Bağışlayın, mən sizin arxanızda dayanmalı oldum. Sizə hörmətsizlik olmasın deyə irəli keçmədim. Çünki bu qədər adamla önünüzdən keçsəydik, namazınız pozulardı.

Bu görüş cəmi bir-iki dəqiqə çəkdi, amma onun xatirəsi Seyid Əlinin beyninə həmişəlik həkk oldu.[1]

kitaboxu.com

---

[1] Yasuc Tibb Universitetinin tələbəsi Seyid Əli Girami ilə müsahibədən.

# İlk vilayət səfəri

Prezidentin sabahkı fəaliyyətini mediada işıqlandırmaq üçün dəvət olunmuşdu. Haraya gedəcəklərini bilmirdi. Ürəyi istəyirdi ki, Məşhəd şəhəri olsun. Bunu ehtimal da edirdi. Düşünürdü ki, qabaqkı hökumətlərdə olduğu kimi, cənab Rəisi də ilk rəsmi səfərinə Məşhəddən başlayacaq.

Sərnişinlər kiçik bir təyyarəyə mindilər. Bir azdan cənab Rəisi də gəlib öndə oturdu. Hələ sərnişinlərin çoxu haraya getdiyini bilmirdi. Pilot bunu hamıya elan etdi: “Salam, hörmətli sərnişinlər! Səfərimiz Əhvazadır və uçuş müddəti bir saatdır”.

Təyyarə səhər saat 7-də Əhvaz hava limanının eniş zolağına endi. Beləliklə, prezidentin ilk vilayət səfəri Xuzistandan başladı.

Hava limanından bir kanalizasiya layihəsinin icra olunduğu yerə, oradan da korona xəstələrini ziyarət etmək üçün Razi xəstəxanasına getdilər. Xəstəxanada ziyarət

kitaboxu.com

bitən kimi hava limanına qayıdıb helikopterlə Cüfeyr kəndinə uçdular.

Kənd əhalisi Xuzistan korpusunun komandirini gözləyirdi. Lakin birdən-birə qarşılarında prezidenti gördülər. Hamı sevindi. Gənclər cənab Rəisini dövrəyə alıb şeir oxumağa başladılar. Bir yay cüməsində günorta çağı prezidenti qarşılayacaqları ağıllarına gəlməzdi.

Hüseyniyyənin həyəti stulla dolu idi. Cənab Rəisi 45 dərəcə istidə birinci cərgədə günəşin altında oturdu. Gənclər növbə ilə tribunaya qalxıb ürək sözlərini dedilər. Cənab Rəisi də dinləyib qeydlərini götürdü.

kitaboxu.com

# İcazə olarmı?

Dərs ilinin ilk zəngini çalmaq üçün hansı məktəbə gedəcəyi müzakirə olunur, hərə bir təklif verirdi. Adətən yaxındakı yaxşı məktəblərin biri seçilirdi. Amma cənab prezident bununla razılaşmayıb dedi:

- Bu ilin əvvəlində Baharıstan şəhərinə gedəndə tapşırmışdım ki, bir neçə məktəb tikdirsinlər. Görün hazırdırsa, onların birinə gedək.

Məktəblər hazır idi, üç ay ərzində əvvəldən axıra qədər bütün işləri bitmişdi.

2023-cü ilin sentyabrında nazirlə birlikdə Şəhid Əmirkəməndi adına orta məktəbə getdi. Stulları həyətə düzmüşdülər. Cənab Rəisi həyətə daxil olub birinci cərgəyə getdi və şagirdlərin yanında oturdu. Qızların bir qrupu yerli geyimdə prezidentin qarşısında dayanıb "İcazə olarmı?" nəğməsini oxudu:

İcazə olarmı, səninlə başlasın məktəbimizin ilk dərsi?

kitaboxu.com

İcazə olarmı, sənin əsgərin olaq biz hamımız?

Söz veririk ki, sinfin ən əlaçı şagirdi olacağıq!

Zühur günü bizi çağıranda tez ayağa qalxacağıq!

Söz veririk ki, ölkəmizin ucalığına çalışacağıq!

Biz sənin üçün canımızdan keçməyə, şəhidlər kimi olmağa hazırıq!

Uşaqlar oxuyur, prezident ağlayırdı. O, uşaqlara baxır, dövrün imamı ilə çox sadə və səmimi söhbətlərindən həzz alırdı. Orada onlara və bütün şagirdlərə bayram hədiyyəsi vermək istədi. Bir az fikrə getdi. Bir neçə dəqiqədən sonra həmin məktəbdə tapşırdı ki, bundan sonra məktəblərdə bütün şagirdlərə süd versinlər.

kitaboxu.com

# Baba Rəisi

İlk dəfə Kərəc həbsxanasına baxış keçirmək istəyirdi. Qarşılayıb “xoş gəldiniz” demək işini dustaqlardan Fərşidə tapşırdılar. Həbsxana rəisinə təəccüblə baxıb dedi:

- Nə danışırsan, hacı?! Bu qədər cinayətimə görə məni onunla danışmağa qoyarlar?!

Cənab Rəisi səhər saat 8-də həbsxanaya girdi. Fərşid yaxınlaşıb dedi:

- Mən bu uşaqlar adından sizə və sizinlə gəlmiş nümayəndələrə “xoş gəlmisiniz” deyirəm.

Bir az da onunla dərdləşmək və şəxsi problemini söyləmək istəyir, amma çəkinirdi.

Cənab Rəisi bir neçə addım aralanandan sonra Fərşid ona dedi:

- Qısa bir sözüm də vardı...

- Buyurun.

O qədər mehriban tərzdə “buyurun” dedi ki, ki, Fərşid çox sevindi, dustaqların niyə

kitaboxu.com

ona “Baba Rəisi” dediklərinin səbəbini anladı. Yaxınlaşıb cinayətinin nə olduğunu söyləyəndən sonra əlavə etdi:

- Daha tövbə etmişəm. Bu həbsxanada Quranın bir neçə cüzünü əzbərləmiş və uşaqların məddahı olmuşam. Onlara Quran öyrədirəm, onlar da mənə “Şeyx Fərşid” deyirlər.

- Məndən istəyin nədir?

- Bir məktub yazmışam, - deyə kövrəldi. – Məşhədə ziyarətə getmək üçün icazə istəyirəm. Düşünürəm ki, sizi İmam Rza mənə kömək etməyə göndərib.

Cənab Rəisinin gözləri yaşla doldu, qollarını açıb Fərşidi qucaqladı, məktubunu alıb cənab İsmailiyə verdi və dedi:

- Göstəriş verin, icra olunsun.

Sonra da məsələ ilə elə maraqlanırdı ki, hakim Fərşidə demişdi:

- Cənab Rəisi qohumundur? Hər gün onun tərəfindən zəng edib sənin işini soruşurlar.

kitaboxu.com

# Hərəm müdafiəçisi

İmam Rzanın (ə) məqbərə kompleksinə rəhbərlik etdiyi dönəmdə hərəm müdafiəsi şəhidlərinin ailələrinə baş çəkmək daimi işlərindən biri olmuşdu. Bir dəfə əfqanıstanlı bir müharibə əlilinin evinə getdi. Məşhəd şəhərinin kənarında qədim, kiçik və kirayə bir ev idi. Gəncin belinə qəlpə girib bədənini iflic etmişdi. Çarpayının yanında oturub başına əlini çəkdi, halını soruşdu.

Cavan Suriya xatirələrindən, İŞİD-lə döyüşlərindən danışdığı yerdə atası gəldi. Ata qonaqları görən kimi ağlamağa başladı. Cənab Rəisi ayağa qalxıb ona əl verdi və soruşdu:

- Nə olub, ata can? Niyə ağlayırsan?

Əfqanıstanlı kişi gözlərini silə-silə dedi:

- Bu oğlumu 18-19 il çətinliklə böyütmüşəm. Həzrət Zeynəbin məqbərəsi uğrunda şəhid olmasını istəyirdim. Ancaq görünür biz şəhid ailəsi olmağa layiq deyilmişik!

kitaboxu.com

Ata ilə oğul Ayətullah Rəisidən heç nə istəmədilər, amma o, oradaca göstəriş verdi ki, cavanı Məşhəd hospitalına aparıb müalicə etdirsinlər. Bir neçə gündən sonra isə cərrahiyyə əməliyyatı ilə qəlpəni belindən çıxardılar. Əfqanıstanlı gənc həyata döndü və bir müddətdən sonra hərəm müdafiəsi üçün yenə Suriyaya yollandı.

kitaboxu.com

# Rəisi, mersi

Cənab prezident Əraka səfər edəcəkdi. HEPCO şirkətinin işçiləri onu bir yolla zavoda gətirmək istəyirdilər. Bilirdilər ki, səfər protokolunda zavoda baxış yoxdur. Lakin ürəklərində onun gələcəyinə ümidləri vardı. Altıncı hissləri onlara deyirdi ki, cənab Rəisi bu şirkət barədə üçillik əməyinin nəticəsini yaxından görməyə gələcək.

İşçilərin biri təklif etdi ki, çəkdiyi əziyyətlərə görə prezidentə təşəkkür məqsədilə "Rəisi, mersi" haştağlı bannerlər hazırlansın. Biri soruşdu: "Yəni, doğrudan da, şirkətə gələcək?" Başqa bir işçi onun sözünü kəsib dedi: "Gəlsə, lap yaxşı; gəlməsə də, bu, bir təşəkkürdür".

Hamı işə başladı, çox tez bir zamanda bannerlər hazır oldu və gecə saat 2-yə qədər şəhərin müxtəlif yerlərinə vuruldu.

Ertəsi gün iş vaxtı xəbər gəldi ki, prezident gəlir, yoldadır. Heç kim inanmırdı, amma 15 dəqiqə keçmədən gəldi. İşçilərin biri

kitaboxu.com

yaxınlaşıb “xoş gəldiniz” deyəndən sonra bildirdi:

- Cənab prezident, həqiqətən də, siz olmasaydınız, indi bu zavod da olmayacaqdı.

- Bu, Allahın lütfü idi, - cənab Rəisi onu dinləyəndən sonra dedi. – Biz də yalnız vəzifəmizi yerinə yetirmişik... Ümid olsa, bütün problemlər həll olar. Sizin şirkətiniz də, inşallah, bundan sonra öz ayağı üstə dayanacaq.

Avtomobilinə minəndən sonra işçilər ona əl yelləyib ucadan dedilər:

- Rəisi, var ol! Rəisi, var ol!

kitaboxu.com

# Qoca qadın

Helikopter İsfahanın Kuhpayə sovetliyinin bir kəndinə doğru yola düşdü. Quraqlıq əkinçiləri incidirdi. Ümidləri prezidentin səfərinə idi.

Əhali helikopterin oturacağı yerə doğru hərəkət etdi. Korpus və Bəsic uşaqları helikopter enmədən heç kimi yaxına buraxmırdılar.

Camaatın arasında bir qoca qadın yavaşca Ayətül-kürsi və "Qul" sözü ilə başlayan dörd surəni oxuyurdu. Sevindiyindən dayana bilmir, helikopterə yaxınlaşmaq istəyirdi. Cənab Übudətian onun yanına getdi, salam verib dedi:

- Ana, siz tələsməyin, qoyun cavanlar getsinlər, mən sonra şərait yaradacağam, cənab Rəisini görüb onunla danışarsınız. Yanına gedəndə zəhmətkeş əllərini də ona göstərərsən.

Qoca qadın üzünü turşudub dedi:

kitaboxu.com

- Sən elə bilirsən, mən prezidentdən nəsə almağa gəlmişəm?! Yox, oğlum, mən cənab Rəisidən imamın və rəhbərin ətrini duyuram.

Helikopter oturan kimi qadın tez yaxınlaşıb cənab Rəisinin yaxınlığında dayandı. O, bütün çıxış boyu Ayətül-kürsi oxuyub ona sarı üfürürdü.

kitaboxu.com

# Qulağa söylənən istək

On ildən sonra 8 avqustda jurnalistlər yenə bir yerə toplaşdılar. Zal müxbir, jurnalist və digər media işçiləri ilə doldu. Prezidenti dinləmək üçün bütün şəhərlərdən Tehrana gəlmişdilər.

Nümunəvi jurnalistlər mükafatlandırıldıqdan sonra növbə cənab Rəisinin çıxışına çatdı. Tribunaya sarı getdiyi yerdə onyaşlı bir oğlan uşağı yaxınlaşıb ona bir şəkil göstərdi, qulağına söz demək üçün əyilməsini istədi. Cənab Rəisi aşağı əyildi. Uşaq ağzını onun qulağına yaxınlaşdırıb istəyini dedi.

Seyid Məhəmməd-Sədranın prezidentə nə dediyini çoxları bilmək istəyirdi. Toplantıdan sonra IRNA-nın müxbiri ona yaxınlaşdı. Uşaq əvvəldə imtina etdi: "Xüsusi istək idi" – dedi. Bir neçə dəqiqədən sonra isə razılaşıb danışmağa başladı. O, şəkli göstərib dedi: "Bu, mənim şəklimdir, general Süleymaninin yanında dayanmışam.

kitaboxu.com

Bunu bir neçə il qabaq İmam Rzanın hərəmində çəkdirmişəm. Mən bu şəkli cənab Rəisiyə göstərib dedim ki, kömək etsin, məni İmam Rzanın xidmətçiliyinə qəbul etsinlər”.

kitaboxu.com

# Mən də yetim olmuşam

O axşam qonaqları fərqli insanlar idilər; nə vəzifələri vardı, nə də elə çox yaşları. Salman məscidində oturub prezidenti gözləyirdilər. Müxbir uşaqların arasında gəzib gələcəkdə hansı peşəyə yiyələnmək istədiklərini soruşurdu. Biri diş həkimi olmaq istəyirdi, biri jurnalistikanı sevirdi və s.

Nəhayət, prezident gəldi. Uşaqlar ona hörmət üçün ayağa qalxdılar. Cənab Rəisi oturmaq istəyəndə onun üçün qoyulmuş döşəkcə və belliyi gördü, əli ilə işarə edib dedi: “Hamısını götürün. Mən də uşaqlar kimi xalçanın üstündə oturacağam”.

Uşaqlarla qarşı-qarşıya oturdu, onlarla bir neçə dəqiqə danışdı, sonra cəm halda namaz qıldılar.

Prezident iftar süfrəsində gördü ki, kamera uşaqları arxadan çəkir. Uşaq evinin rəisindən soruşdu:

- Uşaqları niyə çəkmirlər?

kitaboxu.com

- Yetim uşaqların üzlərini efirdən göstərə bilmərik, - deyə cənab Qadiri cavab verdi.

- Mən də yetim olmuşam, - deyə cənab Rəisi təbəssümlə uşaqlara bildirdi. – Özünüzü əskik bilməyin. Yetim olub öz zəhməti ilə bir yerə çatmaq böyük fəxrdir!

kitaboxu.com

# Salam, komandir

Uqandada görüş və proqramlar başa çatandan sonra prezidentin təyyarəsi Zimbabveyə yola düşdü. Bir neçə min insan hava limanında onu gözləyirdi. Üçsaatlıq uçuşdan sonra, nəhayət, təyyarə yerə endi. Cənab Rəisi təyyarənin qapısından çıxan kimi bütün ərazi alqış və şüar səsləri ilə doldu. Zimbabvedə rəsmi dil ingilis dilidir, amma hər tərəfdən farsca "səlam", "xoş amədid", "Səlli əla Muhəmməd, buye-Xomeyni aməd" (Məhəmmədə salavat de, Xomeyninin ətri gəldi) sözləri deyilirdi.

Prezident hər bir dəstənin önündən keçəndə İran bayrağını qaldıraraq, rəhbərin və general Süleymaninin şəkillərini göstərərək hörmətlərini bildirirdilər. Cənab Rəisi də onlara əl yelləyirdi. Gələnlərin arasında bir şagird qrupu "Salam, komandir" nəğməsini oxuyurdu. Çox istəyirdilər ki, cənab Rəisi onların ifalarını izləsin, amma onlar oxuyanda jurnalist, fotoqraf və

kitaboxu.com

operatorlar araya girib prezidentin önünü bağladılar.

Nəğmələri diqqətlə izlənmədiyinə görə qızlar narahat oldular. Cənab Rəisi hava limanından çıxmaq istəyəndə isə salavat deyib yenə oxumağa başladılar. O, geri qayıdıb uşaqların önündə dayandı, nəğmə bitəndən sonra yaxınlaşıb onlarla yadigar şəkil çəkdirdi. Uşaqlar gözlərinə inana bilmirdilər. Artıq arzularına çatmışdılar. Atılıb-düşür, bir-birini qucaqlayır, sevindiklərindən ağlayırdılar.

kitaboxu.com

# Baş nazirlə görüş

Bir ölkənin Baş naziri ilə görüşü vardı. Cənab Rəisi həmişəki kimi vaxtında görüş yerinə getdi, amma Baş nazir hələ qarşılamağa gəlməmişdi. Teleradio işçiləri kamera və fotoaparatlarla dayanıb prezidentin avtomobildən enməsini gözləyirdilər.

Cənab Rəisi bir neçə dəfə saatına baxıb başını yellədi, axırda dedi:

- Biz neçə dəqiqədir burada gözləyirik ki, cənab Baş nazir gələcək. Bu, bizim ölkəmizə yaraşan hal deyil... Cənab sürücü, gedək.

Sürücü dərhal hərəkətə başlayıb cənab Rəisinin təyinat yerini söyləməsini gözlədi. Sürəti artırmaq istəyəndə ona dedi:

- Bərk sürmən lazım deyil. Ev sahibi gələnə qədər çox yavaşca bu prospektdə dövrə vur.

Avtomobil yavaşca meydanı dövrə vurub yenə əvvəlki yerə qayıtdı. Həmin bir-iki dəqiqə ərzində Baş nazir də gəldi. Cənab

kitaboxu.com

Rəisi və digər rəsmi şəxslər avtomobillərdən enib Baş nazirlə birlikdə görüş yerinə getdilər.

kitaboxu.com

# Çətri götürün

Təxminən on dörd saat uçandan sonra təyyarə Nyu-York səmasına daxil oldu. Evlərin dam örtüyü yaşıl ağaclar arasından görünürdü. Təyyarə buludlu və yağışlı havada Nyu-Yorkun Con F. Kennedi adına hava limanına endi. İri yağış damlaları təyyarənin şüşələrinə dəyir, sərnişinlər süzülən damcılar arasından bayıra baxırdılar. Təyyarənin dörd tərəfində müşayiət avtomobilləri, üstündə işıqlar fırlanan polis maşınları və qara avtomobillər dayandı.

Əvvəl jurnalistlər və media mənsubları təyyarədən endilər. Kameralarını təyyarənin ön qapısına doğru tənzimləyib prezidentin enməsini gözlədilər. Təyyarənin motorları söndürüldü. Bir neçə Amerika polisi qarşılamaq və müşayiət etmək üçün yuxarı qalxıb qapının önündə dayandı. Gözlədikləri yerdə birdən təyyarədən bir nəfər çıxıb onlara nəsə dedi. Polislər mat-məəttəl bir-birinə baxdılar, İran prezidentinin onları

kitaboxu.com

qəbul etmədiyinə görə təəccüblənib trapdan endilər.

Yağış yağırdı, qarşılama qaydalarına görə bir nəfər cənab Rəsinin başı üstə çətir tutmalı idi. Ancaq o, icazə verməyib çətri özü tutdu və trapdan endi. Az sonra isə müxbirlərin yağış altında çətirsiz dayanıb onun foto və video görüntülərini çəkdiklərini gördü, onlara hörmət məqsədilə çətrini bağlayıb kənara qoydu və pillələrin qalanını çətirsiz düşdü.

kitaboxu.com

# Bunları niyə demirsiniz?

Cakarta əhalisi gəlmişdi. Sayları çox idi, özü də isti və rütubətli havada. Cənab Rəisinin gəlişinə iki saat qalırdı, amma artıq zal dolmuşdu. Müxbir zalın məsul şəxsindən soruşdu:

- Camaat iki-üç saatdır yorulmadı? Niyə belə tez gəliblər?

- Bunlar seyidləri çox sevirlər, - deyə gülümsədi. – Cənab Rəisini də çox sevirlər. Bunların çoxu digər şəhərlərdən gəlib. Bəziləri təyyarə ilə iki-üç saatlıq yol qət edib. Çoxları buraya qədər on-on iki saat avtomobil sürüb. Hətta Malayziyadan gəlmiş bir qrup da var.

Cənab Rəisinin gəliş xəbəri zalda çaxnaşma yaratdı. Bir anın içində ön hissə adamla doldu. Bəziləri qaval çalır, bir qrupu şeir oxuyurdu. Mühafizə rəisi narahat idi, camaatı prezidentin ətrafından dağıtmağa çalışırdı. Prezidentin yanındakılar isə ona deyirdilər ki, narahat olma, o, belə qələbəliyə

kitaboxu.com

alışıb. Rəis isə başa düşmürdü. Digər qarşılama mərasimlərinin foto və videoçəkilişlərini ona göstərəndən sonra sakitləşdi.

İyirmi səkkiz saatlıq gərgin və sıx proqramlı İndoneziya səfəri başa çatdı və iranlı heyət Tehrana yola düzəldi. Qayıdanda sərnişinlərə bir nəfər də əlavə olunmuşdu: İndoneziyada yaşayan bir iranlı. O, şikayətlənib deyirdi:

- Siz niyə cənab Rəisini dünyaya tanıtdırmırsınız? Dünya liderləri arasında onun xarakterlərinə malik biri yoxdur. Bir müddət öncə bir ərəb dövlət başçısı İndoneziyaya gəlmişdi; doqquz min nəfər adamla. O, doqquz gün qaldı; üç gün paytaxtda, altı gün də turist şəhəri olan Balidə. Özlərinə xas bir neçə tonluq qida məhsulu da gətirmişdilər. İran prezidenti isə 48 saatlıq səfərinin 20 saatını təyyarədə keçirib, qalanında da iclas və görüşlərdə olub.

kitaboxu.com

## Son vilayət səfəri

"Qız qalası" bəndinin açılışından, Azərbaycan prezidenti ilə görüşdən və namaz qılandan sonra helikopterə mindilər. Helikopterlər tam aydın bir havada Təbrizə doğru yola düzəldi. Təxminən 45 dəqiqədən sonra başlarının üstündə böyük bir bulud topası peyda oldu. Kapitan Mustəfəvi digər iki helikopterə yüksəlib buludlardan yuxarı qalxmalarını əmr etdi. 30 saniyədən sonra helikopterlərdən birinin pilotu cənab Rəisinin helikopterinin orada olmadığını bildi. Dövrə vurub geri qayıtdı. Həyəcanlanmağa başladılar. Nə rabitə cihazları ilə əlaqə yarada bilirdilər, nə də buludların aşağısına enib axtarmaq mümkün idi. Bir-iki dəfə dövrə vurandan sonra çarəsiz qalıb yaxınlıqda yerə endilər.

Kapitan Mustəfəvinin mobil telefonuna zəng etdilər. Cənab Ali-Haşim cavab verdi. Dərəyə düşmüşdü, inildəyirdi. Nə baş verdiyini bilmirdi. Səfər yoldaşlarından da

kitaboxu.com

xəbərsiz idi. Yalnız sızlayır, deyirdi ki, ağacların arasındayam. İki-üç saata qədər zənglərə cavab verirdi, sonra isə əlaqə yaratmaq çox çətinləşdi. Vərziqan bölgəsinə xilasetmə komandaları göndərildi, Ərəsbaran dağı və meşələrini saatlarla axtardılar, amma prezidenti və yol yoldaşlarını tapmadılar. Nəhayət, on altı saat axtarışdan sonra helikopter tapıldı; amma yanmış və sərnişinləri göylərə doğru qanad çalmış halda.

Mənbələr


1. soada.ir
2. telewebion.com
3. aparat.com
4. fa.abna24.com
5. farsnews.ir
6. mehrnews.com
7. ion.ir
8. khabarfoori.com
9. isna.ir
10. borna.news


kitaboxu.com

# Mündəricat

Giriş əvəzi ........................................................................ 3
Məktəb ............................................................................. 5
Məndən böyüklər ............................................................. 7
Xüsusi hədiyyə.................................................................. 9
Dəbdəbəli ev .................................................................. 11
Peykan ............................................................................ 13
Aşura ziyarətnaməsi....................................................... 15
Əba.................................................................................. 17
İlk vilayət səfəri .............................................................. 19
İcazə olarmı?.................................................................... 21
Baba Rəisi........................................................................ 23
Hərəm müdafiəçisi.......................................................... 25
Rəisi, mersi ..................................................................... 27
Qoca qadın...................................................................... 29
Qulağa söylənən istək .................................................... 31
Mən də yetim olmuşam.................................................. 33
Salam, komandir ............................................................ 35
Baş nazirlə görüş............................................................ 37
Çətri götürün.................................................................. 39
Bunları niyə demirsiniz? ............................................... 41
Son vilayət səfəri ........................................................... 43

kitaboxu.com